

**Asalanov Babək Sakit oğlu**

Babək Sakit oğlu Aslanov 15 noyabr 1994-cü ildə Tovuz rayonunun Yanıqlı kəndində anadan olub. 2001-2012-ci illərdə A. Hüseynov adına Yanıqlı kənd tam orta məktəbində təhsil alıb.

2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildə hərbi məktəbdə kurs keçib və müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlayıb. Vətən Müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən “N” saylı hərbi hissəsində gizir hərbi rütbəsi ilə xidmət edib.

Babək Aslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Babək Aslanov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Yanıqlı kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə gizir Asalanov Babək Sakit oğlu "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.